

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 224 (23.636)

*23 dekabr 2020-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan şəhidini ehtiramla qarşılayıb





Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Biz müstəqil dövlətik. Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir".*** O ordu güclüdür ki, onun vətənpərvər və peşəkar şəxsi heyəti vardır. Bu gün ölkəmizdə, eləcə də onun Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Azərbaycan Ordusu ən müasir silah və texnikaya, yüksək döyüş qabiliyyətinə və vətənpərvər şəxsi heyətə malikdir. Elə bunun nəticəsidir ki, ordumuz düşmən təxribatının qarşısını almaq məqsədilə başladığı Vətən müharibəsində tarixi qələbə qazandı. Bu müharibədə Naxçıvandan olan igid oğullarımız əsl vətənpərvərlik nümunəsi göstərərək şəhidlik zirvəsinə ucalmışlar.

Dekabrın 22-də Naxçıvan Beynəlxalq Hava Limanında şəhidimizin qarşılanma mərasimi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Dövlət və hökumət nümayəndələri, Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəliyinin zabitləri və şəhidin ailə üzvləri tədbirdə iştirak etmişlər.

Şəhid olan hərbi qulluqçumuz Həmzəyev Mərhəməd Rizvan oğlunun üçrəngli bayrağımıza bükülmüş cənazəsi hərbçilərin müşayiəti ilə mərasim yerinə gətirildi.

Şəhidimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Ali Məclisin Sədri şəhidimizin xatirəsinə ehtiramını bildirdi.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgərləri tərəfindən yaylım atəşi açıldı.

Sonra "Qurani-Kərim"dən ayələr oxundu, şəhid cənazəsinin önündən keçildi.

Şəhidin cənazəsi doğulduğu kəndə yola salındı.

Ali Məclisin Sədri şəhidin ailə üzvləri ilə görüşdü, onlara başsağlığı verdi.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Əbədiyyət yolçuları

İllərdir, qəlbimizi qəhər, qəm boğur, torpaqlarımızın işğalı günləri yaxınlaşdıqca ürəyimizdəki yara təkrar qanayır, torpaq, yurd həsrəti könlümüzü sızladırdı. Ana torpaqlarımız haqqında televiziyadan köhnə kadrları izləməklə, yazılardan oxumaqla, tarixi fotolardan baxmaqla, şeirləri, nəğmələri dinləməklə az da olsa, ovundururduq özümüzü. Bizi sarsıdan Qarabağ dərdinin, Qarabağ nisgilinin sona çatacağını, doğma torpaqlarımıza qovuşacağımız günü səbirsizliklə gözləyir, üçrəngli bayrağımızın qədim torpaqlarımızda əbədi dalğalandırılacağı günə inanırdıq. Şükür olsun ki, bu günü görməyi Uca Tanrı bizə nəsib etdi. Hamımızın həyatdakı ən böyük istəyi, arzusu gerçəkləşdi. Bu istəyi, bu arzunu ürəkləri Vətən eşqi ilə döyünən, torpaq, bayraq sevgisini qanında, canında yaşadan qəhrəman oğullarımız əbədiləşdirdi. Mübariz, qəhrəman Azərbaycan əsgəri tarixi missiyasını yerinə yetirməklə ölkəmizin ürəyi olan Qarabağı düşmən tapdağından azad etdi. Qəhrəman oğullarımız torpaqlarımızın azadlığı uğrunda son damla qanlarınadək vəhşi, amansız düşmənlə mübarizə apardılar. Düşmənin canlı qüvvəsini, texnikalarını darmadağın, ələ keçirdikləri texnikaları isə onların özlərinə qarşı istifadə etdilər. And içmişdilər, oğullarımız bu yolda, öldü vardı, döndü yoxdu. Gecə-gündüz bilmədən, dərə-təpə demədən, soyuq-şaxta hiss etmədən, qorxusuzca, ölümün gözünə dik baxaraq daim irəli atıldılar, mərd-mərdanə çarpışdılar yağı düşmənlə. Silah-sursat olmadıqda belə, yalın əllə, dəmir yumruqlarının bir zərbəsi ilə düşmənin nəfəsini kəsdilər, yaralansalar da ayağa qalxdılar, mənfurları diz çökdürmək, məhv etmək üçün. İgidliyi, mərdliyi özlərinə müqəddəs amal bilən qəhrəmanlarımız canları, qanları bahasına torpaqlarımızı qaytardılar, üçrəngli bayrağımızı zirvələrdə dalğalandırdılar. Yaramıza, yurdumuza məlhəm olan oğullarımız düşmənlə şücaətlə, rəşadətlə vuruşaraq şəhid adını qazandılar. Həyatdakı ən ülvi, ən ali, ən uca adı!.. Vətənini, torpağını, xalqını canından çox sevən, vətənpərvərlik ideyaları ilə işıqlanan oğullarımız əlçatmaz zirvəyə – şəhidlik zirvəsinə yüksəldilər. Həyatda ən böyük xoşbəxtlik də elə Vətən yolunda şəhid olmaq deyilmi?

Onların igidliyi, şücaəti sayəsində cəmi 44 gün ərzində haqq savaşımız Qələbə ilə başa çatdı, tarixi ədalət zəfər çaldı. Haqq-ədalətin bərpasında, Qələbənin qazanılmasında qədim diyarımız Naxçıvanın qəhrəman oğulları da böyük şücaət göstərərək, ərazi bütövlüyümüz uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

Şəhid olan hərbi qulluqçu Həmzəyev Mərhəməd Rizvan oğlu Şahbuz rayonunun Keçili kəndində son mənzilə yola salındı. Dəfn mərasimində dövlət və ictimaiyyət nümayəndələri, Ali Məclisin deputatları, Əlahiddə Ümumqoşun Ordunun, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmiləri, minlərlə sakin iştirak etdi. Çıxış edənlər onun igidliklərindən danışdılar. Bildirdilər ki, tarixi Qələbənin qazanılmasında qəhrəmanlıq göstərərək şəhidliyə yüksələnlər bütün azərbaycanlıların ürəyində daim yaşayacaq, heç vaxt unudulmayacaqlar.

Mərasimdə iştirak edənlər şəhidin ailəsinə dərin hüznlə başsağlığı verdilər.

Böyük, mətanətli, dəmir iradəli xalqımızın vətənpərvər oğulları sayəsində 30 illik yurd həsrətimiz, ürəyimizdəki Qarabağ nisgili sona çatdı. 20 Yanvarın, Xocalının qisası alındı, günahsız insanlarımızın, körpələrimizin qanı yerdə qalmadı. Bütün dünyaya bir daha göstərdik ki, "Qarabağ Azərbaycandır!" Canlarını Vətənə sipər edən oğullarımız şanlı tarix yazdılar. O tarix ki oxuduqca oxuyacaq, həmişə fəxr, qürur hissləri keçirəcəyik. İgidliyi, mərdliyi, cəsurluğu, Vətən uğrunda candan keçməyin nə olduğunu onlardan öyrənəcəyik. Xatirəniz, ruhunuz həmişə anılacaq, Azərbaycanımızın köksündə əbədi yaşayacaqsınız, əziz şəhidlərimiz! Vətən uğrunda canlarını fəda edən siz qəhrəman oğulların ruhu qarşısında baş əyirik.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvanda şəhid ailələri və yaralananlara Dəstək Fondunun saytı yaradıldı

*http://destekfondu.nmr.az* domenində fəaliyyət göstərən sayta daxil olmaqla ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək vermək mümkündür.



Saytın "Köçürmələr" bölməsində könüllü olaraq maliyyə vəsaiti şəklində yardımlar edən hüquqi və fiziki şəxslərin siyahısı və yardımın miqdarı yer alır.

"Müraciət" bölməsindəki "Şəhid ailələri" və "Müharibədə yaralananlar" altbölmələrinə daxil olub qeydiyyatdan keçməklə müraciət ünvanlamaq mümkündür.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov dekabrın 14-də Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun yaradılması haqqında Fərman imzalayıb. Fond və onun yeni saytı bu kateqoriyadan olan şəxslərə əlavə dəstək verilməsi məqsədilə yaradılıb.

**Xəbərlər şöbəsi**

## Gənc əsgərlər ixtisas hazırlığı kurslarını uğurla bitiriblər

Əlahiddə Ümumqoşun Orduda oktyabr ayı ərzində həqiqi hərbi xidmətə çağırılaraq məşğələlərə cəlb edilmiş gənc əsgərlər ixtisas hazırlığı kurslarını uğurla bitirərək növbəti xidmət yerlərinə yola salınıblar. Yolasalma mərasimində Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra polkovnik Mübariz Rzayev bildirib ki, ixtisas hazırlığı müddətində nəzəri və praktik məşğələlər keçirilib. Əsgərlər burada qazanılan bilik və bacarıqları növbəti xidmət yerlərində uğurla tətbiq edərək əsl döyüşçü kimi formalaşmağa, silah və texnikalardan düzgün istifadə etməyə nail olacaqlar.

Əsgərlər adından çıxış edən İsi Əliyev Azərbaycan Ordusunda xidmətlə qürur duyduğunu bildirib və bundan sonra da hərbi biliklərini təkmilləşdirəcəklərinə söz verib.

Çıxışların ardından Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırılıb.

Təbrik oxunduqdan sonra hərbi marşların sədaları altında bölmələrin təntənəli keçidi olub.

**Kənan CƏLİLOV**

## Qazilərə xüsusi səhiyyə xidməti göstərilib

Muxtar respublikada Vətən müharibəsində iştirak edən və yaralanan hərbçilərimizin müalicəsi, onlara yüksək səviyyədə səhiyyə xidmətinin göstərilməsi diqqətdə saxlanılır. Belə tədbirlərin davamı olaraq "Naxçıvan Muxtar Respublika Xəstəxanası" publik hüquqi şəxsi Culfa rayonunda yaşayan Vətən müharibəsi qaziləri və onların ailə üzvlərini evdə müayinə etmək üçün humanitar tibbi aksiya keçirib. Aksiya çərçivəsində 13 nəfərdən ibarət müxtəlifixtisaslı həkim briqadası tərəfindən Camaldın, Ərəzin, Saltaq, Bənəniyar, Göydərə, Xoşkeşin kəndlərində yaşayan Vətən müharibəsində yaralanan hərbi qulluqçularımıza və onların ailə üzvlərinə xüsusi səhiyyə xidməti göstərilib. Üç qazi isə rentgenoloji, fizioterapevtik müayinə və müalicə üçün Naxçıvan Muxtar Respublika Xəstəxanasına dəvət edilib.



Vətən müharibəsi qaziləri Elşən İbrahimli, Ümman Məmmədov onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər. Ümman Məmmədov Cəbrayıl istiqamətində gedən döyüşlərdə yaralanaraq Bakı şəhərində 1 nömrəli Mərkəzi Klinik Xəstəxanada müalicə alıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində şəhid ailələrinə, Vətən müharibəsi qazilərinə və onların ailə üzvlərinə göstəriləcək səhiyyə xidmətinin keyfiyyətinə nəzarətin təmin edilməsi üçün komissiya yaradılıb. Komissiyanın təşkilatçılığı ilə aksiya muxtar respublikanın digər rayonlarında da keçiriləcək.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

Yeni nəşrlər

# Naxçıvanın blokadası, dünəni və bu gününə həsr olunmuş dəyərli əsər

***16 dekabr 1995-ci ildə blokada şəraitində yaşayan, böyük çətinliklərlə üz-üzə dayanan Naxçıvan Muxtar Respublikasının həyatında mühüm hadisə baş verdi. Müstəqil Azərbaycan və onun qədim diyarı Naxçıvan Muxtar Respublikasının Ali qanunvericilik orqanlarına keçirilən seçkilərdən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Vasif Yusif oğlu Talıbov Ali Məclisin Sədri seçildi. Muxtar respublikanın ictimai-siyasi və mədəni həyatında çox böyük dəyişikliklərə, inkişafa, tərəqqiyə, intibaha gətirib çıxaran, muxtar respublikanı geridə qalmış aqrar, kənd təsərrüfatı bölgəsindən Azərbaycanın inkişaf etmiş sənaye, kənd təsərrüfatı, elm, təhsil və mədəniyyət mərkəzlərindən birinə çevrilməsinin əsası qoyulan həmin günün 25 ili tamam oldu.***

Bu əlamətdar hadisə muxtar respublika əhalisinin müxtəlif təbəqələri, xüsusilə ziyalılar tərəfindən kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə yüksək səviyyədə qeyd edildi, muxtar dövlətimizin rəhbərinə insanların sevgisi müxtəlif vasitələrlə ifadə olundu. Bu münasibətlə özünün "Qəzet jurnalistikası" və "Naxçıvanın publisistik xəritəsi" kitabları, çoxsaylı məqalələri ilə geniş oxucu auditoriyasının yaxından tanıdığı Azərbaycan Respublikasının Əməkdar jurnalisti Mətanət Məmmədovanın məhz elə həmin gün – 16 dekabr 2020-ci ildə 2 cildlik "Naxçıvan blokadası" kitabı işıq üzü gördü və elmi dövriyyəyə buraxıldı. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik səviyyədə nəşr olunan kitabın müəllifinin titul vərəqində qeyd etdiyi kimi blokada Naxçıvanının ağır yükünü çiyinlərinə götürərək ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanla bağlı arzularını reallığa çevirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtar respublikaya rəhbərliyinin 25 illiyinə həsr olunmuşdur.

Mən Mətanət Məmmədovanı müxtəlif mətbuat orqanlarında nəşr olunan yazılarına əsasən qiyabi olaraq çoxdan tanısam da, şəxsi tanışlığım onun muxtar respublikanın baş mətbu orqanı olan "Şərq qapısı" qəzetində işləməyə başlamasından sonra olmuşdur. Onun öz işinə yaxından bələd olan, peşəkar, ən başlıcası isə çox zəhmətkeş bir jurnalist olması haqqında qənaətlərim şəxsi tanışlığımızdan sonra daha da möhkəmlənmişdir. Bu gün haqqında söhbət açmaq istədiyim "Naxçıvan blokadası" ikicildliyi onun haqqında olan fikirlərimin çox parlaq sübutudur.







Muxtar respublikanın müstəqillik dövrü tarixinin çox aktual, ancaq indiyədək sistemli tədqiqat obyektinə çevrilməmiş, yaxud da çox səthi şəkildə öyrənilmiş bir probleminə – Naxçıvanın blokada tarixinə həsr olunan, birinci cildi 14, ikinci cildi 12 fəsil olan bütövlükdə, 820 səhifəni əhatə edən kitab müəllifin çox gərgin əməyinin, böyük zəhmətinin bəhrəsi kimi diqqəti cəlb edir. Kitabda Naxçıvanın blokadasının başlanmasından, onun yaratdığı çətinliklərdən başlayaraq ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan mərhələsindən, onun Naxçıvanı xilas etmək sahəsində həyata keçirdiyi tədbirlərdən bəhs olunur. Həmçinin kitabda ulu öndər Heydər Əliyevin 1991-1993-cü illərdə Naxçıvanda başladığı işləri 1995-ci ildən böyük məsuliyyət və bacarıqla, qətiyyətlə, ardıcıl şəkildə davam etdirməklə, fəaliyyətində Heydər Əliyev inkişaf strategiyasını əsas götürməklə blokadadakı Naxçıvanın dünəninin fonunda bu gününü yaradan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun həyata keçirdiyi tədbirlər və əldə olunan nailiyyətlər özünə yer almışdır.

Kitabda müəllif Naxçıvanın blokadaya salınması üçün ermənilər tərəfindən törədilən əməllər, elektrik enerjisinin, qazın kəsilməsindən, xüsusilə Naxçıvandan Bakıya və əksinə hərəkət edən qatarlara, vaqonlarda olan sərnişinlərə qarşı törədilən təxribatlardan, qatarların Mehridə saxlanmasından söhbət açır, özünün şahidi olduğu hadisələri, bu hadisələr fonunda keçən yüzilliyin əvvəllərində Naxçıvanda baş verənləri, tarixə ekskursiya edərək Naxçıvan tarixi ilə əlaqədar əsl həqiqətləri yolyoldaşı olduğu tarixçi alimin dili ilə bədii-publisistik şəkildə yüksək səviyyədə oxucuya çatdırır. Mətanət Məmmədova topladığı real faktiki materialları təhlil edərək Naxçıvanın blokadasının bəzən bir sıra materiallarda qeyd olunduğu kimi, 1992-ci ildən deyil, ən azı 1 il əvvəl başlandığını sübut edir. 1989-cu ilin dekabrında Naxçıvanda başlanan və bütün Azərbaycana yayılan sərhəd hərəkatı, Sovet-İran sərhəd dirəklərinin və qurğularının dağıdılması haqqında dövrün mətbuat orqanlarının materialları əsasında maraqlı məlumatlar verən müəllif qeyd edir ki, artıq bu zaman ermənilərin Naxçıvana təcavüzləri, çörək növbələri başlanmış, aclıq, insanların soyuqdan donma, xüsusilə əhalinin ermənilər tərəfindən soyqırımına uğradılması təhlükəsi reallaşmışdı.

Çox ağır günlərini yaşadığı bir dövrdə ulu öndər Heydər Əliyevin taleyin hökmü ilə Naxçıvana gəlməsi əhalini aclıqdan, soyuqdan donmaqdan, ən başlıcası, muxtar respublikanı erməni işğalından xilas etdi. Onun sıravi vətəndaş, deputat və Ali Məclisin Sədri kimi Naxçıvanda fəaliyyəti dövründə qəbul edilən və kitabda da əksini tapan bir sıra qərarlar hələ SSRİ kimi nəhəng bir dövlətin mövcud olduğu dövrdə gələcək müstəqilliyə hesablanmış addımlar kimi diqqəti cəlb edir. Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan və Naxçıvan Muxtar Respublikası Ali hakimiyyət orqanlarına deputat seçilməsi, onun sədrliyi ilə 17 noyabr 1990-cı ildə Naxçıvan MSSR Ali Sovetinin ilk sessiyasında bir sıra qərarların, o cümlədən Naxçıvanın MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Ali qanunvericilik orqanının adının dəyişdirilərək Ali Məclis adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması kitabda ətraflı şərh olunmuşdur. Həmçinin kitabda 3 sentyabr 1991-ci ildə Naxçıvan əhalisinin təkidli tələbi ilə ulu öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi, Naxçıvan ərazisini işğaldan, əhalini məhv olmaqdan qorumaq üçün apardığı işlərdən, bu məqsədlə yeritdiyi uğurlu xarici siyasətdən söhbət açılmışdır.

Kitabın I cildində blokada zamanı naxçıvanlıların çətin həyat tərzi, ərazidə, xüsusilə Sədərəkdə baş verən hadisələr, Kərki kəndinin işğalı haqqında maraqlı məlumatlar verilir. Şərur toylarının timsalında Naxçıvan toyları, toydan qabaq və toylarda əməl olunan, yerinə yetirilən adət və ənənələr, o cümlədən xınayaxdı mərasimi, haxıştalar, gülümeylər deyilməsi və sair mərasimlərin çox səliqəli şəkildə təsvir və təqdim edilməsi, "Ərik ağacı" fəslində ağacın naxçıvanlılar üçün mənəvi dəyərinin müəllifin özünün yazdığı bayatılarla açılması, "Xalçanın üstündən asılan silah " fəslində xalqın milli-mənəvi dəyərlərinin əks olunması kitab müəllifinin xalqımızın etnoqrafiyasına dərindən bələd olmasının göstəricisi kimi qəbul edilə bilər.

Kitabın ikinci cildi Naxçıvanın dünəni və bu gününə həsr olunmuşdur. Müəllif bu cilddə "Şərq qapısı" qəzetinin 1990-1995-ci illərdə işıq üzü görən saylarında dərc olunan və blokadanın ən dəhşətli günlərini yaşayan Naxçıvan Muxtar Respublikasında yaranan ictimai-siyasi vəziyyətdən, blokadanın yaratdığı çətinliklərdən bəhs edən materiallar toplamışdır. Qəzetin həmin vaxt nəşr olunan nömrələrini əldə etmək, lazımi materialları toplamaq üçün müəllif Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində, "Şərq qarısı" qəzetinin arxivində və Naxçıvan şəhərindəki kitabxanalarda uzun müddət axtarışlar aparmış, çoxlu materiallar əldə etmiş, onları oxumuş, təhlil etmiş, işlədiyi mövzuya aid olan materialları kitaba daxil etmişdir. Müəllif kitabın bu cildində 1995-ci ilin dekabr ayından etibarən muxtar respublikada baş verən möhtəşəm dəyişikliklərdən bəhs etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Vasif Yusif oğlu Talıbovun Ali Məclisin Sədri seçilməsi ilə əlaqədar 1995-ci il 16 dekabr tarixli Qərarı ilə başlayan II cilddə həmin vaxt Naxçıvanda yaranmış böhranlı vəziyyəti təhlil edən müəllif belə bir qənatə gəlir ki, o dövrdə Naxçıvanda hakimiyyətə elə bir adam gəlməliydi ki, həm labüd ağır vəziyyətə dözüm nümayiş etdirsin, həm bölgənin ərazi bütövlüyünü qoruyub saxlaya bilsin, həm də Naxçıvanın gələcək inkişafını təmin etsin. Buna görə də ulu öndər Heydər Əliyev Naxçıvanın taleyini tapşırmaq üçün cənab Vasif Talıbovu seçdi. Ötən 25 illik müddət isə dahi şəxsiyyətin seçiminin nə qədər düzgün olduğunu və siyasətdə heç vaxt yanılmadığını sübut etdi. Ali Məclisin Sədri kimi cənab Vasif Talıbov öz fəaliyyəti ilə ulu öndərin ***"Mən istəyirəm ki, mənim arzum, istəklərim... Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım, yerinə yetirilsin"*** şəklində ifadə etdiyi arzu və istəklərini gerçəkləşdirdi. Belə ağır və məsuliyyətli vəzifəni həll etməyə müəllifin fikrincə, Ali Məclisin Sədri xarakterində birləşdirdiyi 25 qiymətli məziyyəti, o cümlədən Sadəliyi, Əqidəsi, Sədaqəti, Dövlətçiliyi, Vətənpərvərliyi, Mübarizliyi, Prinsipallığı, Yorulmazlığı, Dözümlülüyü, Uzaqgörənliyi, Cəsarətliliyi, Qurucu Rəhbər olması, Ənənəviliyi, Zövqlülüyü, Təmizliyi, Qonaqpərvərliyi, Zəhmətkeşliyi, Qayğıkeşliyi, Həssaslığı, Mərhəmətliliyi, Etibarlılığı, Məğrurluğu, Xilaskarlığı, Əbədiliyi və Müdrikliyi ilə nail ola bildi. Sözün əsl mənasında, muxtar respublikanı inkişafdan intibaha apardı, beləliklə, "Naxçıvan möcüzəsini" yaratdı.

Müəllif kitabda xüsusi olaraq qeyd edir ki, "blokada ilə inkişaf, tərəqqi sözləri tarixin heç bir dönəmində bir araya gəlməmiş, qoşa səslənməmişdir". Ancaq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yeritdiyi məqsədyönlü siyasət, həyata keçirdiyi uğurlu tədbirlər bu fikrin Naxçıvana aid olduğunu sübut etdi. Cənab Sədr sübut etdi ki, bütün çətinliklərə baxmayaraq, hətta blokada şəraitində də ***"yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar".***

Mətanət Məmmədova kitabın ikinci cildində Naxçıvan şəhərinin və muxtar respublikaya daxil olan rayonların inkişaf yoluna, onların dünəninə və bu gününə nəzər salmaqla bu möcüzənin təzahürlərini geniş oxucu kütləsinə çatdırmağı bacarmışdır. Naxçıvan Muxtar Respublikası və ona daxil olan şəhər və rayonların keçdiyi yoldan bəhs edərkən müəllif öz fikirlərini möhkəmləndirmək və təsdiq etmək üçün çoxlu foto və statistik materialları da kitaba daxil etmişdir. Beləliklə, özünün yazdığı kimi "Blokada Naxçıvanı: dünən və bu gün" mənzərəsi yaradılmışdır.

Kitabın müəllifi əmindir ki, dünya tarixçiləri gələcəkdə, bəlkə də, müstəqilliyimizin altmışıncı, yetmişinci, yüzüncü illərində bir-birinin əksi olan blokada və inkişaf ... intibah sözlərinin bir araya sığmasını Naxçıvanın timsalında tədqiq edəcək və bu tədqiqat dünya tarixinə Naxçıvan nümunəsi kimi həkk olunacaqdır.

Ümumiyyətlə, "Naxçıvan blokadası" ikicildliyi Naxçıvan Muxtar Respublikasının müstəqillik dövrü, xüsusilə geniş tədqiqinə böyük ehtiyac olan blokada tarixi haqqında yazılmış çox dəyərli bir əsərdir. Kitabın dəyərini artıran əsas cəhətlərindən biri blokadanın yaratdığı bütün çətinliklərə baxmayaraq, məhz bu illərdə muxtar respublikanın bütün parametrlər üzrə yüksək inkişaf səviyyəsini geniş oxucu kütləsinə real faktlar əsasında çatdırmasıdır. Bir sıra dövlət sənədlərinin, o cümlədən ümummilli lider Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövründə deputat, sonralar isə Ali Məclisin Sədri kimi Ali Məclisin sessiyalarına rəhbərlik etməsi, Onun Sədrliyi ilə qəbul olunan və imzası ilə təsdiq edilən qərarların çoxunun orijinalının fotosurətinin kitaba daxil edilməsi onun dəyərini daha da artırır. Qeyd etmək istəyirəm ki, bu cəhətdən kitaba çox nadir sənədlər daxil edilmişdir. Məsələn, Ali Məclisin çoxlarının zamanında şahidi olduğu, ancaq zaman keçdikcə unudulan 1992-ci il 5 yanvar tarixli Qərarı çox əhəmiyyətli sənəd kimi diqqəti cəlb edir. Belə ki, həmin gün Azərbaycan Respublikası Prezidentinin "Qiymətlərin və tariflərin liberallaşdırılması haqqında" 1992-ci il 2 yanvar tarixdə imzaladığı Fərmanla əlaqədar Ali Məclis Qərara almışdı ki, Naxçıvan Muxtar Respublikasının ərazisində çörək və unun qiyməti qaldırılmasın. Həmin vaxt Naxçıvanda yaşayan bir vətəndaş kimi bu qərarın çox böyük iqtisadi çətinliklərlə üz-üzə qalan Naxçıvan əhalisi tərəfindən nə qədər böyük sevinc və razılıq hissi ilə qarşılandığını yaxşı xatırlayıram.

Həmçinin Naxçıvan Muxtar Respublikasında 1995-ci ilin dekabrından sonra aparılan genişmiqyaslı abadlıq və quruculuq işlərinin nəticələrini əyani olaraq fotoşəkillər vasitəsilə təqdim olunması, həm də müqayisə aparmaq üçün obyektlərin əvvəlki və indiki şəkillərinin kitaba daxil edilməsi də muxtar respublikada aparılan sistemli və məqsədyönlü işlər haqqında aydın təsəvvür yaradır.

Erməni xisləti, konkret vətənlərinin olmaması, güclü dövlətlər tərəfindən himayə və bir alət kimi istifadə olunmaları, türk xalqlarına qarşı törətdikləri soyqırımlar, bu zaman insanlara qarşı tətbiq etdikləri ağlasığmaz vəhşiliklər və sair haqqında müəllifin müxtəlif mənbələrdən toplaması və "Unutmayaq" başlığı ilə I cildin hər fəslinin əvvəlində qabarıq şəkildə diqqətə çatdırılması da kitabın dəyərini artıran, erməniləri yaxından tanımağa, bizi daim ayıq-sayıq olmağa, olub keçənləri unutmamağa səsləyən fikirlər kimi diqqətəlayiqdir.

Kitabla tanışlıq göstərir ki, müəllif onu hazırlamaqda qarşısına qoyduğu məqsədə nail olmuş, Naxçıvan Muxtar Respublikasının ermənilər tərəfindən blokadaya salınmasının, blokadanın yaratdığı çətinliklərin, bütün bunlara baxmayaraq, həmin vaxt Naxçıvanda yaşayan və işləyən ulu öndər Heydər Əliyevin səyləri nəticəsində Naxçıvanın işğaldan, əhalinin aclıqdan, səfalətdən, soyuqdan donmaqdan və ermənilər tərəfindən məhvindən xilas edilməsinin, 1995-ci ilin dekabrında cənab Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsindən sonra bölgənin keçdiyi möhtəşəm inkişaf yolunun aydın və obyektiv mənzərəsini yarada bilmişdir. Fikrimizcə, Azərbaycan Respublikasının Əməkdar jurnalisti Mətanət Məmmədovanın zəngin faktiki materiallar əsasında qələmə aldığı "Naxçıvan blokadası" əsəri müəllifin növbəti uğurudur və Naxçıvanşünaslıq elmi xəzinəsinə çox sanballı töhfədir. Heç şübhəsiz ki, bu kitab Naxçıvan Muxtar Respublikasının müstəqillik dövrü tarixinə aid yazılmış əsərlər içərisində öz layiqli yerini tutacaqdır. "Naxçıvan blokadası" kimi mükəmməl bir əsər hazırladığı və elmi dövriyyəyə daxil etdiyi üçün Mətanət Məmmədovanı təbrik edir və ona yeni yaradıcılıq uğurları arzulayıram.

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA-nın müxbir üzvü***

# Esse imtahanı keçirilib



Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında mətbuat xidmətlərinin fəaliyyətlərinin təşkili və qarşıda duran vəzifələrlə bağlı 2018-ci il 19 may tarixdə keçirilən müşavirədə qarşıya qoyulmuş tapşırıqların icrasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət orqanlarında mətbuat və ictimaiyyətlə əlaqələr üzrə vakant vəzifələrin tutulması üçün esse imtahanı keçirilib.

İmtahanda iştirakçılara müstəqil mühakimə yürütmək və əsaslandırmaq bacarığını nümayiş etdirməyə imkan verən "Ötən 25 ildə müasir Naxçıvan" mövzusu təqdim edilib. İştirakçılar esse yazarkən fikirlərini məntiqi ardıcıllıqla ifadə edib, təhliletmə, tətbiqetmə, ümumiləşdirmə və məntiqi nəticəçıxarma qabiliyyətini nümayiş etdiriblər.

Yazı işləri yoxlanılarkən yuxarıdakı meyarlar nəzərə alınıb və iştirakçıların yaradıcılıq qabiliyyətləri qiymətləndirilib. Esse mərhələsində sənəd təqdim etmiş 12 nəfərdən 12-si imtahanda iştirak edib, onlardan 8-i müvafiq keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb.

Nəticələr Dövlət İmtahan Mərkəzinin rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilib.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

*Muxtar respublikamızın bütün bölgələrində geniş meliorasiya-irriqasiya işlərinin görülməsi, yeni kənd təsərrüfatı texnikalarının gətirilərək əkinçilikdə istifadə olunması, zəhmətsevər insanlara yüksək reproduksiyalı toxumların, mineral gübrələrin, həmçinin güzəştli kreditlərin verilməsi, emal və istehsal sahələrinin, soyuducu anbarların yaradılması ailə təsərrüfatlarının formalaşmasına da geniş imkanlar açır. Təbii ki, ailə təsərrüfatlarında istehsal edilən məhsulların kəmiyyəti, keyfiyyəti ilə yanaşı, təbliği və təşviqi də önəmli məsələdir. Bu baxımdan hər il muxtar respublikamızda keçirilən ənənəvi festivallar, həftə sonları təşkil olunan yarmarkalar bu mütərəqqi təsərrüfatlarda istehsal olunan məhsulların səmərəli satışına, təşviqinə, təbliğinə geniş imkan yaratmaqla bu sahədə sağlam rəqabətə yol açaraq ümumi inkişafa xidmət edir. Başa vurmaqda olduğumuz 2020-ci ildə də bu istiqamətdə işlər xüsusi diqqətdə saxlanılıb, ailə təsərrüfatı məhsullarının satış yarmarkalarının keçirilməsi mütəşəkkil hal alıb.*

## Ailə təsərrüfatı məhsullarının satışı uğurla reallaşdırılır





Muxtar respublikanın ən böyük rayonlarından biri kimi Şərurda da mütərəqqi təsərrüfat forması sayılan ailə təsərrüfatlarının gündən-günə artması göstərilən dövlət qayğısının ifadəsidir. Hazırda rayonda 120-dən artıq ailə təsərrüfatı fəaliyyət göstərir. Ötən günlərdə Şərur şəhərində təşkil olunan ailə təsərrüfatı məhsullarının satış yarmarkasına 121 ailə təsərrüfatı subyektindən müxtəlif çeşidlərdə qablaşdırılmış 246 növdə 6 min 808 ədəd məhsul çıxarılıb. Yüksək səviyyəli tərtibatı, səliqə-sahmanı ilə diqqəti çəkən yarmarkada rayonda yetişdirilən dadlı-tamlı meyvə və tərəvəzlərdən hasilə gələn mürəbbələr, kompotlar, turşular, tutdan hazırlanan doşab, müxtəlif meyvələrdən çəkilən araq və şərablar, şirələr, dağlarımızda bitən dərman bitkiləri, yabanı meyvələr, qovurmalar, Günnüt və Havuş balları buraya gələnlərin marağını çəkib. Həmçinin müxtəlif xalq sənəti növləri ilə məşğul olanların, məktəbdənkənar təhsil müəssisələrində dərnəklərə cəlb olunan şagirdlərin, məhdud fiziki imkanlı şəxslərin əl işləri də yarmarkaya çıxarılıb.

Ötən həftə Babək şəhərində istifadəyə verilən bazar kompleksinin açılış tədbirində Ali Məclisin Sədri bazarda ailə təsərrüfatı məhsullarının satışına üstünlük verilməsi və yarmarkaların təşkili barədə tapşırıqlar verib. Bunun üçün bazarda hərtərəfli şərait yaradılıb, 36 satış yeri olan yarımqapalı sahə istifadəyə verilib. Rayonda təşkil olunan satış yarmarkasına isə 75 ailə təsərrüfatçısı tərəfindən 130 çeşiddə, dəyəri 20 min manata yaxın 2900-dək qablaşdırılmış məhsul çıxarılıb. Rayonun bütün yaşayış məntəqələrindən olan ailə təsərrüfatçıları tərəfindən qarpız, qovun, alça arağı, üzüm çaxırı, qarpız doşabı, tomat, müxtəlif növ meyvə quruları, turşular, kompotlar, süd məhsulları və başqa məhsullar alıcılara təqdim edilib. Satış yarmarkada yaşayış məntəqələrinin təsərrüfatçılıq ənənələrinə uyğun məhsullar – Babək göyərtisi, Qahab lavaşı, əriştəsi, Buzqov cəvizi ən çox satılan nemətlərdən olub. Həmçinin kompleksdə heyvan və ev quşlarının satışı üçün 1250 kvadratmetr çəpərlənmiş sahə də ayrılıb, Kültəpə kəndindən olan ailə təsərrüfatçıları həmin yerdə gətirdikləri ev quşlarının satışını təşkil ediblər.

Culfa rayonunda keçirilən ailə təsərrüfatı məhsullarının satış yarmarkasında rayonun bütün yaşayış məntəqələrindən olan 40 ailə təsərrüfatçısı iştirak edib. Təsərrüfat sahibləri yarmarkaya 175 adda 3173 qablaşdırılmış məhsul çıxarıblar. Rayonun bütün kəndlərindən olan ailə təsərrüfatçılarının iştirak etdiyi yarmarkada müxtəlif növ mürəbbələr, pendir, qatıq, cəviz, meyvə quruları və araqları, eləcə də turşular, çaxırlar, kompotlar, xüsusilə qovurma və dərman bitkiləri alıcılara təklif edilib. Bundan əlavə, yarmarkaya Culfa Rayon İcra Hakimiyyəti və Əhalinin Sosial Müdafiəsi Mərkəzinin birgə təşəbbüsü ilə sağlamlıq imkanları məhdud şəxslər tərəfindən hazırlanmış 124 əl işi də çıxarılıb. Culfa Rayon Məşğulluq Mərkəzi tərəfindən özünüməşğulluq proqramına cəlb olunmuş qadınlardan Raminə Məmmədovanın hazırladığı müxtəlif növ şirniyyatlar da alıcılara təklif edilib. Yarmarkada, həmçinin Culfa Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində fəaliyyət göstərən dərnəklərdə uşaqlar tərəfindən hazırlanmış toxuculuq, rəsm, bəzək əşyaları olmaqla, ümumilikdə, 250-dən çox əl işi maraqla qarşılanıb.

Şahbuz şəhərindəki Heydər Əliyev prospektində təşkil olunan növbəti ailə təsərrüfatı məhsullarının satış yarmarkasında rayonun 24 yaşayış məntəqəsindən 50-yə yaxın ailə təsərrüfatçısı iştirak edib. Yarmarka iki gün davam edib. Ailə təsərrüfatçıları tərəfindən 11 növdə, 104 adda 2958 qablaşdırılmış məhsulların satışı təşkil olunub. Qaymaq, xama, müxtəlif növ mürəbbələr, pendir, qatıq, cəviz, meyvə araqları, eləcə də turşular, kompotlar, Şahbuz təbiətinin nemətlərindən olan, min bir dərdə dərman bitkilər alıcılara təqdim edilib. Eyni zamanda yarmarkaya ailə təsərrüfatçıları tərəfindən qablaşdırılmış alça, göycə, ərik, tut və digər meyvə quruları da çıxarılıb. Ailə təsərrüfatı məhsullarının satışı alıcılar tərəfindən razılıqla qarşılanıb, təqdim olunan məhsullar istehlakçılar tərəfindən münasib qiymətə alınıb. Sağlamlıq imkanları məhdud şəxslərin əl işləri isə alıcılar tərəfindən maraqla qarşılanan və ən çox alınan məhsullar sırasında olub.

Ailə təsərrüfatı məhsullarının satış yarmarkaları belə deməyə əsas verir ki, muxtar respublikamızda aqrar sahənin inkişafına ayrılan uzunmüddətli və güzəştli kreditlər kiçik və orta sahibkarlıq subyektlərinin, o cümlədən ailə təsərrüfatlarının formalaşmasına geniş imkanlar açıb. Beləliklə də, dövlətin qayğısından yetərincə yararlanan ailə təsərrüfatları hər il məhsul istehsalını və çeşidini artıraraq həm ərzaq bolluğunun yaradılmasına, həm də güzəranlarının daha da yaxşılaşmasına çalışırlar.

**Xəbərlər şöbəsi**

## Əhalinin sosial rifah halı yaxşılaşdırılır

Muxtar respublikada sosial-iqtisadi sahədə həyata keçirilən islahatlar öz müsbət nəticələrini verməkdədir. Cari ildə pandemiya dünya iqtisadiyyatını bir sıra çətinliklərlə üzləşdirsə də, həyata keçirilən məqsədyönlü islahatların nəticəsidir ki, muxtar respublikanın ümumi inkişafını xarakterizə edən makroiqtisadi göstəricilər üzrə heç bir geriləmə qeydə alınmamışdır. Sığorta-pensiya sisteminin inkişafına göstərilən yüksək diqqət və qayğı sayəsində Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu və onun yerli orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi üçün də bir sıra tədbirlər həyata keçirilmişdir. Bunun nəticəsində isə fond qarşıya qoyulmuş vəzifələrin icrasını müvəffəqiyyətlə yerinə yetirməyə nail olub.

Ötən ay əmək pensiyalarının düzgün təyinatı və ödənişinin aparılması, eləcə də fərdi uçot sistemi sahəsində bir sıra işlər görülmüşdür. Belə ki, əmək pensiyalarının və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin maliyyələşdirilməsi vaxtında başa çatdırılmışdır. Tələb olunan 15 milyon 55 min manat vəsait pensiya və məcburi dövlət sosial sığorta ödəmələrinə xərclənmişdir. Əmək pensiyalarının və müavinətlərin ödənişi plastik kartlar və poçt bölmələri vasitəsilə həyata keçirilmişdir.

İqtisadi sahədə dayanıqlı inkişafın təmin olunması noyabr ayında da fondun büdcəsində nəzərdə tutulan daxilolmaların həcminə müsbət təsir göstərmişdir. Nəticədə, ötən ay ərzində müvafiq icra hakimiyyəti orqanı tərəfindən məcburi dövlət sosial sığorta haqlarının toplanması üzrə fondun xəzinə hesabına 9 milyon 224 min 600 manat vəsait daxil olmuşdur ki, bu da proqnoz üzrə nəzərdə tutulmuş vəsaitdən 1 milyon 349 min 600 manat və ya 17,1 faiz çoxdur. Fondun büdcəsinin gəlirləri üzrə proqnoz tapşırıqlara artıqlaması ilə əməl olunması muxtar respublikada əmək pensiyaları və müavinətlərin də vaxtlı-vaxtında maliyyələşdirilməsinə əlverişli şərait yaratmışdır.

Hesabat dövründə fond tərəfindən 10 nəfərə yaşa, 7 nəfərə sağlamlıq imkanları məhdudluğuna, 23 nəfərə ailə başçısını itirdiyinə görə, ümumilikdə, 40 nəfərə əmək pensiyası təyin edilmişdir. Pensiya təyin olunan vətəndaşlardan 25-nə qanunvericiliyə əsasən ilk dəfə təyinat olmuş, 15-nə isə pensiya növündə dəyişiklik edilmişdir. Bundan başqa, yeni əmək fəaliyyətinə başlayanlara sosial sığorta şəhadətnamələrinin hazırlanması üçün 245 ərizə forması elektron imza vasitəsilə sifariş verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## *"Türkiyə-Azərbaycan əlaqələri: müasir tarix və perspektivlər"* mövzusunda beynəlxalq konfrans keçirilib



*"Naxçıvan" Universitetinin və Ərzincan Binəli Yıldırım Universitetinin birgə təşkilatçılığı ilə "Türkiyə-Azərbaycan əlaqələri: müasir tarix və perspektivlər" mövzusunda onlayn beynəlxalq konfrans keçirilib.*

Konfransı giriş sözü ilə ali təhsil ocağının rektoru, dosent Nurlana Əliyeva açaraq bildirib ki, Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr bu əlaqələri şərtləndirən amillər sırasında yer alır. Türkiyə və Azərbaycan öz tarixinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdiriblər. Vətən müharibəsi zamanı türkiyəli qardaşlarımızın bizə dəstəyi unudulmaz tarixdir.

Ulu öndər Heydər Əliyevin ***"Biz bir millət, iki dövlətik"*** müdrik kəlamı ilə çıxışına başlayan Ərzincan Binəli Yıldırım Universitetinin rektoru, professor Levent Akın Azərbaycan ilə Türkiyə arasında olan dostluq, qardaşlıq əlaqələrinin sarsılmazlığından və möhkəmliyindən danışıb.

Daha sonra Ərzincan Binəli Yıldırım Universitetinin professoru Salim Gökçenin "Türkiyənin İkinci Qarabağ savaşındakı yeri və müasir anlamda "Bir millət-iki dövlət"anlayışı", Azərbaycan Pedaqoji Universitetinin prorektoru, dosent Eldar Aslanovun "Regional geosiyasi qütbləşmələr və Türkiyə Azərbaycan əlaqələri", Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, "Naxçıvan" Universitetinin prorektoru, dosent Hüseyn Bağırsoylunun "Azərbaycan-Türkiyə əlaqələrində Naxçıvan faktoru", AMEA Naxçıvan Bölməsinin Qafqaz tarixi şöbəsinin müdiri, dosent Emin Şıxəliyevin "Yeni Dünya Nizamı. Cənubi Qafqaz və geosiyasi həmlələr", "Naxçıvan" Universitetinin Tarix kafedrasının müdiri, dosent Mehman Şabanovun "Türkiyənin Naxçıvana baxışı və Türk qapısı Naxçıvan" mövzusunda çıxışları dinlənilib.

Bildirilib ki, Azərbaycan və Türkiyə arasındakı iqtisadi münasibətlər tarixi-mədəni yaxınlığa və qarşılıqlı strateji tərəfdaşlığa əsaslanır. İkitərəfli iqtisadi əlaqələrdə çoxşaxəlilik və intensivlik müşahidə edilir. Bu əlaqələr ticarət, investisiya qoyuluşları və çoxtərəfli münasibətləri əhatə edən regional layihələrdə özünü daha qabarıq göstərir. Hazırkı iqtisadi tərəfdaşlıq həm Türkiyə və Azərbaycanın ölkə miqyasında, həm də region miqyasda nüfuzunun və iqtisadi gücünün artımında əhəmiyyətli rol oynayır. Mustafa Kamal Atatürkün Naxçıvanı "Türkün qapısı" adlandırması bu bölgənin strateji əhəmiyyətinin bariz nümunəsidir. Naxçıvanla qərb rayonlarımız arasında birbaşa nəqliyyat dəhlizinin açılması, qardaş Türkiyənin Naxçıvan vasitəsilə Orta Asiyaya çıxışı muxtar respublikanın iqtisadi inkişafına öz töhfəsini verəcək. Muxtar respublikanın turizm potensialından, eləcə də təbii ehtiyatlarından səmərəli istifadə regionun sosial-iqtisadi inkişafına bundan sonra da əlverişli zəmin yaradacaq.

**Seyfur HACIMURADOV**

## Elektron kitabxanaların təşkili və formalaşması problemləri müzakirə edilib



Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə "Elektron kitabxanaların təşkili və formalaşması problemləri" adlı onlayn respublika elmi konfransı keçirilib. Konfransı giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev qeyd edib ki, elektron kitabxanalarda informasiya texnologiyalarının tətbiq edilməsi istifadəçilərə dünya informasiya məkanına daxil olmaq baxımından daha geniş imkanlar yaradır. Rektor kitabxana fəaliyyətinin təkmilləşdirilməsi və yeni texnologiyaların tətbiqinin təmin edilməsi istiqamətində aparılan dövlət siyasətindən bəhs edib.

Bakı Dövlət Universitetinin Biblioqrafiyaşünaslıq kafedrasının müdiri Nadir İsmayılov dünyada tanınan ən böyük milli kitabxanalardan biri olan M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının yaranma tarixindən və inkişaf yolundan danışaraq kitabxananın biblioqrafik verilənlər bazaları haqqında məlumat verib.

UNEC Kitabxana-İnformasiya Mərkəzinin direktoru Adilə Abdullayeva çıxışında vurğulayıb ki, 2019-cu ildə Əsaslı kitabxananın bazasında yaradılan bu mərkəz Azərbaycanın dövlət siyasətini rəhbər tutaraq fondunu müxtəlif kitabxana-informasiya resursları ilə formalaşdırır, mühafizəsini və ondan istifadəni təmin edir.

Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasının direktoru Fariz Əhmədov çıxışında bildirib ki, 1968-ci il aprel ayının 23-dən fəaliyyət göstərən universitet Elmi Kitabxanası 2013-cü il iyulun 9-dan elektron kitabxana kimi fəaliyyətə başlayıb. Diqqətə çatdırılıb ki, kitabxanaya üzv olan hər bir oxucu elektron kataloq vasitəsilə kitabxanaya gəlmədən kitabxana@ndu.edu.az emaili vasitəsilə kitabxananın xidmətindən istifadə edə bilər.

Konfransın plenar iclasında AMEA Naxçıvan Bölməsi Elmi Kitabxanasının direktoru Sahab Əliyeva, Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının direktoru Nigar İsmayılova "Naxçıvan" Universiteti Elmi Kitabxanasının müdiri Zamin Babazadə çıxış ediblər.

Konfrans öz işini bölmə iclası ilə davam etdirib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Qəhrəmanlar diyarı ulu Naxçıvanımızın adını uca tutmağa çalışdıq

***Ürəyində Vətən sevgisi, köksündə üçrəngli, ay-ulduzlu bayraq, çiynində silah daşıyıb qarlı aşırımları, keçilməz dağları aşan igid Azərbaycan əsgəri, illərdir, arzusunda olduğumuz o günü – şanlı Qələbə Gününü xalqımıza yaşatdı. Bu yolda zəfər yürüşündə kimi canından, kimisi gözünün nurundan, kimisi əlindən-ayağından keçdi. Sağlamlığını itirənlər qazi – Oğuz igidi oldular. Onlar bizim canlı əfsanələrimizdir. Döyüşə atılanda öz şirin canlarını belə, düşünmədilər. Yaralı vəziyyətdə belə, döyüşdülər. Onların igidliyi xalqımızın illərdir, qanayan yarasına məlhəm oldu.***

"Qəhrəmanlar diyarı ulu Naxçıvanımızın adını uca tutmağa var gücümüzlə çalışdıq. Atalarımızdan qalan mirası, əmanəti canımızla qoruduq. Naxçıvanskilərin, Kəngərlilərin soyunun davamçıları, məğlubedilməz bir xalqın nümayəndəsi olduğumuzu sübut etdik".

Bu sözlər həmsöhbət olduğum qazi, Vətən müharibəsinin igidlərindən biri, Əlahiddə Ümumqoşun Ordunun mayoru, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 15 dekabr Sərəncamı ilə "Azərbaycan bayrağı" ordeni ilə təltif edilən Təbriz Zeynalova aiddir. O, qədim yurdumuzun Kəngərli rayonunun Qarabağlar kəndində anadan olub. Deyir, uşaq vaxtı çox zirək olduğuna görə anası onu böyüyəndə hərbçi kimi görmək istəyib. Onun arzusu ilə 2005-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olub. 2008-2012-ci illərdə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə təhsil aldıqdan sonra leytenant kimi Ağcabədi rayonuna göndərilib. İki il burada xidmət edən gənc zabit xidməti vəzifəsini davam etdirmək üçün Beyləqan rayonuna göndərilib. 2014-cü ilə kimi orada xidmət edən Təbriz Xüsusi Təyinatlı Qüvvələrdə xidmətini davam etdirmək qərarına gəlib və Bakı şəhərində 6 aylıq kursa qatılıb. Buranı birinciliklə bitirir. 2015-ci ildən 2016-cı illər ərzində xüsusi təyinatlı kurslarda iştirak edib, xarici ölkələrə kurslara cəlb edilib. Şanlı Aprel zəfərində payı olan igidimiz Talış kəndi istiqamətində gedən döyüşlərdə şücaətlə iştirak edib. Həmin il xidmətini davam etdirmək üçün Naxçıvan Əlahiddə Ümumqoşun Orduya köçürülüb. Təbriz Günnüt zəfərində göstərdiyi igidliyə görə Ali Baş Komandanın Sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif olunub. İki böyük və uğurlu əməliyyatın iştirakçısı olan müsahibim



Vətən müharibəsində torpaqlarımız uğrunda gedən döyüşlərdə qazi olub. O, bir gözünün nurunu Vətənə qurban verib. Deyir ki, min canım olsa, yenə də Vətən yolunda keçməkdən çəkinmərəm. Doqquz ilə yaxındır ki, xidməti vəzifəsi ilə əlaqədar Azərbaycanın bir neçə rayonunda cəbhə bölgəsində xidmət edən zabit bu illər ərzində hər gün Ali Baş Komandanın döyüş əmrini gözlədiyini bildirir. Deyir ki, Aprel və Günnüt zəfərlərini qazandıqdan sonra qələbəyə daha çox yaxınlaşdığımızı hiss edirdik. Ordumuzun hər bir əsgəri və hərbi qulluqçusu bu anı səbirsizliklə gözləyirdi. Əks-hücum əməliyyatı başlayan gündən buradan Qarabağa getməyə can atırdıq. İllərdir, düşmən tapdağı altında qalan torpaqlarımız bizi səsləyirdi. Şükür Yaradana ki, o gün gəldi, biz də digər yoldaşlarımız kimi oraya gedib torpaqlarımızın azadlığı uğrunda döyüşlərə qatıldıq. Hadrut istiqamətində gedən döyüşlərdə bir neçə silahdaşımız şəhid oldu. Onların düşmən güllələrinə tuş gəlmələri məni ruhdan salmadı, ürəyimizdəki intiqam hissini daha da alovlandırdı. "İrəli!" hücum əmri verildikcə uzun illərdir, qəlbimizdəki intiqam hissi bizi daha da irəli getməyə sövq edirdi. Həmin döyüşlərin birində ağır yaralanmağım məni çox kədərləndirdi. Döyüşmək, daha da irəli getmək, düşməndən ovuc-ovuc azad edilən torpaqların ətrini duymaq, o yerlərə qədəm qoymaq ən böyük arzum idi. Bu yolda canımdan, sağlamlığımdan keçməyə hər an hazır olmuşam.

Və bu gün qürur duyuram ki, azad edilən torpaqlarda mənim də ayaq izim, Qələbədə payım var. Orada vətənpərvərliyin ən yüksək zirvəsini görmək məni bir azərbaycanlı kimi çox sevindirdi. Bu gün sağlamlığımı Vətən yolunda itirdiyimə görə heç də təəssüflənmir, əksinə, qürur duyuram. Çünki bilirəm ki, gözümün nuru itməyib, o, Qarabağımızın illərdir, işıqsız qalan gözlərinə aydınlıq gətirib.

Təbriz onu da xüsusilə bildirir ki, həmişə olduğu kimi, bu gün də dövlətin qayğısını üzərimizdə hiss edirik. Bu günlərdə Ali Məclis Sədrinin Naxçıvan Qarnizonunun Hərbi Hospitalında bizi ziyarət etməsi, sağlamlığımız, bizə göstərilən tibbi xidmətin səviyyəsi ilə maraqlanması hər birimizə böyük ruh yüksəkliyi verdi. Hiss etdik ki, dövlətimiz həmişə olduğu kimi, indi də yanımızdadır. Muxtar respublikamızın hansı səhiyyə ocağına müraciət etsək, oradakı həkimlərimiz sağlamlığımızın bərpasına hərtərəfli kömək edirlər. Ordu sıralarına qayıtmağı və dövlətimizin müzəffər Ordusunda yenidən xidməti davam etdirəcəyim günü səbirsizliklə gözləyirəm.

Otuz ilə yaxın bir zaman kəsiyində hər gün, hər yeni il gələndə, hər bayramda bir arzumuz, niyyətimiz var idi – torpaqlarımız işğaldan azad edilsin, gələn bayramı, yeni ili Şuşamızda, Laçınımızda qeyd edək. Budur, həmin arzuların çin olduğu günləri yaşayırıq. 44 gündə 30 ildə dünya dövlətlərinin görə bilmədiyi bir işi bacardıq. Biz bir olduq, birlikdə gücləndik, qayıtdıq elimizə, obamıza. Azərbaycanlıların gücünü, qüdrətini göstərdik bütün dünyaya. Necə bir xalq olduğumuzu döyüşlərdə canımdan, sağlamlığımdan keçən igid Vətən oğullarının sayəsində sübut etdik. Necə ki xalqımızın Təbriz kimi igid oğulları var, bu xalq, bu millət də var olacaq, öz torpaqlarının, müstəqil dövlətinin sahibi olacaq.

**Ramiyyə ƏKBƏROVA**

## Dərslik və metodik vəsaitlər təqdim olunub



Dünən Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə metodik vəsait və dərsliklərin məktəbə təqdim olunması, eyni zamanda məktəbdə təhsil alan şagirdlərə Yeni il sovqatının verilməsi ilə bağlı tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini Heyran Əhmədova çıxış edərək muxtar respublikada uşaqlara göstərilən hərtərəfli diqqət və qayğıdan danışıb. Bildirilib ki, uşaqların təhsili, sağlamlıqlarının qorunması, istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtının və tərbiyəsinin düzgün təşkili, cəmiyyətin ictimai-mədəni həyatındakı iştiraklarının təmin edilməsi məqsədilə mühüm tədbirlər həyata keçirilir. Həmçinin sosial qayğıya ehtiyacı olan uşaqların ehtiyaclarının hərtərəfli təminatı, reabilitasiyası, onların yüksək mənəvi mühitdə, milli dəyərlər əsasında tərbiyəsi, təhsil alaraq layiqli şəxsiyyət kimi yetişməsi ilə yanaşı, onların fiziki cəhətdən sağlam böyüməsi də diqqətdə saxlanılır.

Qeyd edək ki, Təhsil Nazirliyi tərəfindən məktəbə 65 metodik vəsait, 233 dərslik alınmışdır.

Sonda məktəbdə təhsil alan şagirdlərə bayram sovqatı verilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Konfrans keçirilib



*"Naxçıvan" Universitetində "Müasir Azərbaycan iqtisadiyyatı: uğurlar və perspektivlər" mövzusunda elmi konfrans keçirilib.*

Konfransı giriş sözü ilə İqtisadiyyat kafedrasının müdiri, dosent Dilsuz Qasımov açaraq bildirib ki, müasir dövrümüz dünya iqtisadiyyatının biliklər, texnologiyalar və innovasiyalar əsasında formalaşması və inkişaf etdirilməsi ilə xarakterizə olunur. Son illər Azərbaycanın sosial-iqtisadi həyatının modernləşdirilməsi istiqamətində görülən tədbirlərin nəticəsi kimi Azərbaycan iqtisadiyyatı dayanıqlı yüksəlişə nail olub, qeyri-neft sektorunun inkişafında əhəmiyyətli nailiyyətlər əldə edilib.

Konfransda İqtisadiyyat fakültəsinin dekanı Zakir Məmmədovun " Azərbaycan iqtisadiyyatı yeni inkişaf mərhələsində", İqtisadiyyat kafedrasının dosenti Əli Cabbarovun "Azərbaycan turizminin gələcək inkişaf perspektivləri", İqtisadiyyat ixtisasında təhsil alan II kurs tələbəsi Əlvanə Qasımlının " Azərbaycanın davamlı iqtisadi inkişafı qələbəmizin rəhnidir" mövzularında çıxışları dinlənilib.

**Seyfur HACIMURADOV**

## Tələbələrin peşəkarlıq səviyyəsi yüksəldilir



*Naxçıvan Muxtar Respublikasının Turizm Departamentində Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinin Turizm və otelçilik ixtisası üzrə təhsil alan tələbələri üçün "Turist marşrutlarına tələblər və marşrutun hazırlanma qaydaları" mövzusunda seminar keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin sektor müdiri Həsən Kərimov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamına uyğun olaraq tələbələrin peşə hazırlığının yüksəldilməsi məqsədilə departament tərəfindən mütəmadi olaraq müxtəlif formatlı tədbirlər keçirilir.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi, özünəməxsus iqlimi, fauna və florası, qədim dini, tarixi, mədəni və təbiət abidələri, ərazidə 250-yə yaxın mineral və müalicəvi əhəmiyyətli su mənbələrinin mövcudluğu, muxtar respublikamızda sabitliyin və təhlükəsizliyin təmin olunması turizmin inkişafı üçün əlverişli şərait yaradır. Yaradılmış şərait muxtar respublikamıza gələn turistlərin mənalı istirahətini təşkil etməyə imkan verir və turistlərin sayının ilbəil artmasına öz müsbət təsirini göstərir.

Turizm Departamentinin əməkdaşı Orxan Cəfərov çıxış edərək turist marşrutlarına tələblər və marşrutun hazırlanma qaydaları haqqında tələbələrə geniş məlumat verib.

Sonda suallar cavablandırılıb, muxtar respublikanın turizm potensialını əks etdirən videoçarx nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

* * *



*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və Hüquqşünaslıq fakültəsinin Hüquqşünaslıq ixtisası üzrə IV kurs tələbələrinin nazirlikdə keçdikləri təcrübə kursu nazirliyin Məhkəmə Ekspertizası Mərkəzində yekunlaşıb.*

Tələbələr praktik olaraq mərkəzdə aparılan ekspertizaların keçirilməsini müşahidə edib, tədqiqatların aparılması üçün nəzərdə tutulan avadanlıqlarla tanış olublar.

Dünən mərkəzdə təcrübənin bitməsi ilə əlaqədar tələbələrlə görüş keçirilib. Görüş zamanı ədliyyə fəaliyyətinin əsas istiqamətlərindən olan məhkəmə ekspertizasının tarixi inkişaf yolundan bəhs edilib, cinayətkarlıqla mübarizədə və ədalət mühakiməsinin həyata keçirilməsində mühüm rolundan danışılıb.

Sonra tələbələr mərkəzin ekspertlərinin təqdimatında "Kriminalistik eyniləşmə nəzəriyyəsinin inkişaf tarixi"ndən bəhs edən videoçarxa baxıblar.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya qoyulmuş vəzifələrin icrası noyabr ayında da təmin edilmişdir.***

## Fövqəladə hallara hazırlıq diqqətdə saxlanılır

2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar keçirilən müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı Naxçıvan şəhərinin təhsil müəssisələrinə məxsus 27 qazanxanada qaz təsərrüfatından təhlükəsiz istismar edilməsinə nəzarət olunmuş, yanğın-partlayış və dəm qazı ilə zəhərlənmələrin qarşısının alınması məqsədilə 11 müəssisədə 201 nəfərin, payız-qış mövsümünə hazırlıqla bağlı 34 müəssisədə 822 nəfərin iştirakı ilə maarifləndirici tədbir keçirilmişdir. Standarta uyğun olmayan qaz cihazlarının satışının qarşısının alınması üçün 27 ticarət obyektinə baxış keçirilmiş və sahibkarlarla söhbət aparılmışdır.

Muxtar respublikanın şəhər və rayonlarında pandemiyaya qarşı dezinfeksiya tədbirləri davam etdirilərək, ümumilikdə, 4 milyon 631 min kvadratmetr sahədə dezinfeksiya işi aparılmışdır.

Hesabat ayında muxtar respublika ərazisində yanğın təhlükəsizliyinin etibarlı təmin olunması məqsədilə 95 obyektdə diqqətli, 199 obyektdə nəzəri, 6 obyektdə isə məqsədli yoxlama keçirilmiş, 9 min 94 nəfər yanğına qarşı təlimatlandırılmış, 775 qazanxanada texniki və yanğın təhlükəsizliyi tədbirlərinə əməl olunmasına baxış keçirilmişdir. Həmçinin 3 min 481 yaşayış evinə də baxılmış, yanğın cəhətdən təhlükəli olan 52 elektrik, 140 şlanqla çəkilmiş qaz xətti dəyişdirilmiş, 28 suqızdırıcının və 159 tez qatlanan tüstü borusunun istismarı dayandırılmış, 112 mənzilin tüstü bacası və havaçəkən kanalları təmizlənmişdir. Ay ərzində 55 obyektlə icbari sığorta müqaviləsi bağlanmışdır.

Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi tərəfindən yeni tikilən 6 obyektin istismara hazırlığı yoxlanılaraq "İstismara hazırlıq aktı" verilmiş, tikinti işləri aparılan obyektlərin işçi və layihə sənədlərinin ekspertizası həyata keçirilərək 8 obyektin işçi layihə sənədlərinə rəy verilmiş, 21 obyektin layihə sənədlərinin üzərində isə işlər davam etdirilmişdir.

Noyabr ayında muxtar respublika ərazisində müxtəlif fövqəladə hallarla bağlı daxil olmuş məlumatlara çevik reaksiya verilərək hadisələrin qarşısı vaxtında alınmış və vətəndaşlara dəymiş zərər minimuma endirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 962